2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü İlham Məmmədovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 28 dekabr 2019-cu il tarixli 38 saylı müraciət üzrə

# RƏYİ

Bakı şəhəri 29 dekabr 2019-cu il

Mən, ekspert qrupunun üzvü İlham Məmmədov 2019-cu il dekabrın 23-də bələdiyyələrə keçirilmiş seçkilərdə Kürdəmir rayonu Yenikənd kənd sakini Əbdürəhimov Dərgah Şahı oğlu 57 saylı Kürdəmir seçki dairəsinin 36 və 37 saylı seçki məntəqələrində seçkinin düzgün aparılmadığını, vətəndaşların hüquqlarının pozulmasına dair Mərkəzi Seçki Komissiyasına daxil olmuş 28 dekabr 2019-cu il tarixli 38 saylı müraciətini nəzərdən keçirərək **müəyyən etdim:**

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinin pozulması ilə daxil olduğundan aidiyyəti üzrə dairə seçki komissiyasına göndərilməlidir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112.1-ci maddəsində göstərilən şəxslər şikayəti müvafiq yuxarı seçki komissiyasına təqdim edə bilərlər.

Həmin Məcəllənin 112-1.12-ci maddəsinə görə müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6, 7 və 8-ci hissələrinə əsasən **rəyə gəldim:**

1. 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində Kürdəmir rayonu Yenikənd kənd sakini Əbdürəhimov Dərgah Şahı oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 28 dekabr 2019-cu il tarixli 38 saylı müraciəti araşdırılması üçün aidiyyəti üzrə 57 saylı Kürdəmir seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü İlham Məmmədov.